# I FƏSİL

Həmin cümə günü Lüsi Endkatellin iri mavi gözləri yeni günə saat düz altı otuzda açılmışdı. Oyanar-oyanmaz, hərzamanki kimi düşünməyə başladı. Onun qeyri-adi ağlında artıq kiminləsə müzakirə etmək üçün bir neçə sual doğulmuşdu. Və seçim həmin axşam "Vadi"yə gələn Mic Hardkastlın üzərinə düşdü. Lüsi tez qalxdı, hələ də gözəl görünən çiyinlərinə xalat atdı və qohumunun yataq otağına getdi. Beynindəki düşüncələr bir-birinin ardınca tez-tez gəldiyindən, ledi Endkatell köhnə adəti üzrə fikrində artıq danışacaqları söhbəti edirdi: geniş fantaziyası nəinki öz sözlərini, hətta Micin də replikalarını düzüb-qoşurdu. O, Micin otağına girib hələ ki əvvəli deyilməyən frazanın sonunu səsləndirəndə, xəyalında qurduğu söhbət artıq çox uzanmışdı: – ...beləliklə, əzizim, siz razılaşmalısınız ki, bu həftə sonu tamamilə fərqli, qeyri-adi olacaq!

Qəflətən dərin yuxudan ayılan Mic deyindi. Ledi Endkatell pəncərəyə yaxınlaşıb pərdəni çəkdi. Solğun sentyabr günəşi otağa düşdü.

– Quşlar! – dedi o. – Bu, çox gözəldir!

– Nə?

– Hər halda, – ledi Endkatell davam etdi, – havayla bağlı çətinliyimiz olmayacaq. Müxtəlif zövqlü insanları bir evdə bağlı qapılar arxasında saxlamaq, razılaşın ki, hər şeyi daha da qəlizləşdirir! Mən çox gözəl anlayıram ki, gözlənilməz şeylər baş verə bilər. Axı keçən il Herdanın başına gələn

kimi yenə də nəsə ola bilər. Sonra Henriyə dedim ki, mən yaxşıca düşünməliydim. Axı onu dəvət etməmək mümkün deyil, Condan tək gəlməyi xahiş etmək olmaz və bu da hər şeyi qəlizləşdirir. Ən pisi isə onun xoşagəlimli olmasıdır! Belə gözəl və eyni zamanda ağılsız olmaq... Doğrudan da, qəribədir... Və əgər bu kompensasiya qanunu adlanırsa, burada ədalətli heç nə görmürəm.

– Əziz Lüsi, siz nədən danışırsınız?

– Bizim həftə sonumuzdan, sabah bizə qonaq gələcək adamlardan. Mən bütün gecəni onlar haqqında düşünmüşəm, bütün bunlar məni çox narahat edir. Sizdə çoxlu ağıllı fikirlər var və həm də çox praktiksiniz!

– Lüsi, heç bilirsiniz saat neçədir?

– Xeyr, məndə zaman hissi yoxdur!

– İndi saat yeddiyə on beş dəqiqə qalıb!

– Necə?!

Belə görünür ki, ledi Endkatell zərrə qədər də vicdan əzabı çəkmirdi. Mic onu ciddi baxışlarla süzür və düşünürdü ki, əmiqızı adamı dəli edən dəhşətli bir varlıqdır və insaların niyə görə ona belə can atdığı anlaşılmazdır. Bu sual beynində formalaşana kimi cavabı da tapıldı: Lüsi gülümsədi və bu təbəssümdə onun indiyə qədər qoruyub saxladığı, həyatı boyu şəfəq saçdığı gözəllik göründü. Bu cür gözəllik bütün dünyada qalib gəlir. Monarxlar, nazirlər, məşhur kapitanlar belə gözəllik qarşısında baş əyiblər. Lüsidə nəsə qəribə uşaqlıq təbəssümü, izaholunmaz sevinc vardı ki, bu da insanın əl-qolunu bağlayır, onu təslim olmağa məcbur edirdi. Bircə iri mavi gözlərini açıb ümidsiz bir jestlə zərif əllərini yelləyərək, “Ah! Mən təəssüf edirəm...”, deməyi kifayət edirdi. Və istənilən narazılıq yoxa çıxırdı.

Ledi Endkatell birdən anladı.

– Mənim əzizim! – dedi o. – Düzü, mən çox təəssüf edirəm... Siz gərək belə çox tez olduğunu mənə deyəydiniz!

– Mən deyirəm də... amma artıq gecdir! Daha yuxudan oyanmışam.

– Mən çox utanıram!.. Amma buna baxmayaraq, siz mənə kömək edəcəksiniz, elə deyilmi?

– Sizi həftəsonunun gəlməyi narahat edir. Nə isə bir uğursuzluq olacağını düşünürsünüz?

Ledi Endkatell çarpayının qırağına əyləşdi və hətta bunu da başqalarından fərqli etdiyini Mic sezməyə bilməzdi. Lüsiylə bağlı hər bir şey qeyri-adi olurdu. Ona elə gəlirdi ki, xeyirxah pəri gəlişiylə bir anlıq dünyanı sevindirib.

– Çox şey uğursuz ola bilər, – Lüsi cavab verdi. – Gələnlərin hamısı çox yaxşı adamlardır, amma onların hamısını bir arada təsəvvür edəndə qorxuya düşürəm.

– Siz kimləri gözləyirsiniz?

Mic gündən qaralmış möhkəm əlləriylə tünd rəngli, qalın, ağır saçlarını alnından geri itələdi. Bundasa qeyri-adi heç nə yox idi və o, əlbəttə ki, pəri haqqında heç düşünmürdü də.

Hamıdan əvvəl, – ledi Endkatell başladı, – Con və Herda. Onlar olduqca xoş insanlardır. Con çox yaraşıqlı, davranışı isə mehribandır. Herda isə... Onun haqqında nə demək olar? Biz hamımız onunla nəzakətli davranmalıyıq, çox nəzakətli!

Mic birdən-birdə etiraz etdi:

– Heç də bu qədər mərhəmətə layiq deyil!

– Amma əzizim, onda insanı titrədən, hətta deyərdim ki, həyəcanlandıran nə isə var!.. Onun gözləri!.. Həmişə elə baxır ki, elə bil buna deyilən sözlərdən heç birini başa düşmür!

– O, başa düşmür! – Mic etiraz etdi. – O, sizi başa düşmür və mən hesab etmirəm ki, buna görə onu qınamaq olar. Sizin fikirləriniz, düşüncələriniz elə sürətlə qaçır ki, onları izləmək mümkün deyil. Söhbətlərinizdə qeyri-adi sıçrayışlar edirsiniz. Söhbəti bir-birinə bağlayan halqalar kənarda qalır.

– Hə, meymunlardakı kimi.

– Kristou ailəsi qonağımız olacaq, – Mic davam etdi, – sonra kim? Güman edirəm ki, Henrietta da!

Ledi Endkatellin bənizi işıqlandı.

– Bəli, – dedi o. – Və mənim ona gümanım çoxdur. Henrietta xeyirxahdır, çox xeyirxahdır. Onun xeyirxahlığı zahiri deyil, anadangəlmədi. O, Herda məsələsində bizə köməklik göstərəcək. Keçən il o, çox əlaydı. Yadınızdadırmı, biz ya tapmaca, ya da ki, atalar sözləri oynayanda nə baş vermişdi: artıq hamı yazıb qurtarmışdı və cavabları açmaq istəyəndə yazıq Herdanın hələ heç nə yazmadığını gördülər. O, hətta nə oynadığını da bilmirdi! Hamımız bir az narahat olduq.

– Mən özümə sual edirəm, – Mic bütün ciddiyyətiylə dedi, – necə ola bilər ki, insanlar indiyə kimi hələ də sizin evə gəlirlər! Əyləncələr – beyin üçün işgəncə, zarafatlar – ən seçilmiş təbəqə səviyyəsində, söhbətlər – ancaq xüsusi xarakter daşıyır.

Ledi Endkatell gülümsədi.

– Mən bilirəm, biz, yəqin ki, çox darıxdırıcıyıq. Və ola bilər ki, bütün bunlar Herda üçün dözülməzdir. Əminəm, əgər onda zərrə qədər də olsa ağıl varsa, bura gəlməzdi. Amma o vaxt oradaydı! O, çox çaşqın və kədərli görünürdü... Con səbirsizdi və tez-tez ona işarələr edirdi. Bunun nə ilə nəticələnəcəyini özümdən soruşurdum. Və elə o

vaxt Henrietta, – buna görə ona həmişə minnətdar olacağam, – onu vəziyyətdən çıxartdı. O, Herdaya tərəf çevrilib puloverdən danışmağa başladı. Herdanın əynində çox pis, iyrənc yaşıl rəngli pulover vardı. Dəhşət! Herda isə nəşə saçırdı. Sən demə, bu "sənət əsərini" o, özü toxuyubmuş. Henrietta ülgüsünü xahiş edəndə elə çiçək açdı ki, mən onu heç vaxt belə məğrur və xoşbəxt görməmişdim. Demək istəyirəm ki, Henrietta üçün belə ideyalar çox təbiidir. Bu da bir istedaddır!

– O, xoşa gəlməkdən ötrü çalışır.

– Və hər zaman da lazımlı sözlər tapır.

– Bununla kifayətlənməyib davam etdi. Bilirsiniz, indi də eynən həmin cür puloveri var, qırmızı və yaxşı hazırlanmış.

– Və Henrietta onu geyinir?

– Əlbəttə! O heç nəyi yarımçıq etmir! – Və əynində elə eybəcər görünmür?

– Heç zərrə qədər də! Pulover ona çox gözəl yaraşır.

– Bax, bax! – ledi Endkatell dedi. – Bax Henriettayla Herdanın fərqi elə məhz bundadır. Henriettanın etdiyi hər bir şey gözəl və yaxşı alınır. Əminəm ki, əgər həftə sonu yaxşı keçsə, bu, onun sayəsində olacaq. O, Herdayla xoş davranacaq, Henrini əyləndirəcək, Conun kefini kök saxlayacaq və mənə elə gəlir ki, Devid də onun burada olmasından şad olacaq.

– Devid Endkatell?

– Bəli. O, Oksforddan gələcək, ya da ki, ola bilər Kembricdən. Bu yaşda oğlanlar çətin xarakterli olurlar, xüsusən də, intelligent ailədən olanda. Bu, məhz elə haldır... Onlar bir az böyümələrini gözləyə bilərdilər və onda intellektual oyununa başlayardılar. Onlar gözlərini iri-iri

açıb sizə baxır, ya ağızlarını ümumiyyətlə açmır, ya da ki, diqqət cəlb etmək üçün həddindən artıq yüksək səslə danışırlar. Buna baxmayaraq, mən Devidlə bağlı məsələdə Henriettaya arxayınam. O, çox ədəbli və nəzakətlidir. Həmişə nədən söhbət etmək lazım olduğunu bilir. Heykəltəraş olduğuna görə ona hörmətlə yanaşacaq. Bilirsiniz, o, mələk başı düzəldən heykəltəraşlardan deyil. O, keçən il "Heykəltəraşların dəb salonu"nda sərgilənən gips və metal parçası kimi qəribə böyük və bərk şeylər hazırlayır. Tənqidçi Robinsonun qeyd etdiyi kimi, bu əsər haradasa pilləkəni xatırladırdı. Adı da "Sübh vaxtı düşüncə"ydi, ya da ki, buna bənzər nəsə. Bu cür əsərlər məhz elə Devid tipli oğlanlarda təəssürat yaratmaqçün lazımdır. Mənim üçün boynuma alıram ki, bu ağlasığmaz və anlaşılmazdır. Amma həm də mənim çox sevdiyim şeylər də hazırlayıb. Məsələn, "Ağlayan göyrüş" kimi...

– Razıyam, – dedi Mic. – Henrinin istedadı bəzən özünü göstərir. Bundan başqa, o, çox gözəl qadındır.

– Ledi Endkatell qalxdı. Pəncərənin önündə dayanıb pərdəni hərəkətə gətirən ipi fikri dağınıq halda barmaqlarının arasında oynadırdı. O pıçıldadı:

– Bu fırçalar nədən ötrüdür?

– Hansı fırçalar?

– Bu iplərin ucundakı. Onlar nəyə lazımdır? Başlıqların qırağına nə üçün ananas düzəldirlər? Nədən ötrü? Bunun nəsə bir səbəbi olmalıdır. Bu fırçaların yerinə armud və ya şam ağacının qozaları da ola bilərdi. Amma yox, həmişə fırça olur! Bu, çox maraqlıdır...

– Mənim əzizim, söhbətdən yayınmadınız ki? Axı siz həftə sonuyla bağlı söhbət etməyə gəlmişdiniz. Amma sizi nə narahat edir, bilmirəm. Əgər Herdanı tez-bazar söhbətlə

çaşdırmasanız, gənc intellektualın əhilləşdirilməsini Henriettanın üzərinə buraxsanız, nə çətinlik olacaq ki?

– Hər şeydən əvvəl Edvard var. O gəlməlidir.

Mic bir az düşünəndən sonra soruşdu:

– Axı sən onu niyə dəvət etmisən?

– Elə söhbət də ondan gedir ki, onu mən dəvət etməmişəm! – ledi Endkatell dedi. – O, özü-özünü dəvət edib. Teleqramm göndərib gəlmək üçün icazə istəyib. Bilirsiniz də, o necə küsəyəndi. Əgər "yox" cavabı versəydim, bir də onu buralarda görməyəcəkdik. O elədir!..

Mic başını tərpətməklə razılığını bildirdi. Hə, Edvard məhz belədir. Onun incə cizgili, ironik gülüşlü, yaraşıqlı üzünü təsəvvürünə gətirdi. Hə, o, çox cazibədardı. Elə Lüsi də.

– Əziz Edvard! – ledi Endkatell əks-səda kimi Micin fikrini təkrarladı. Sanki bir az da qıcıqlanaraq davam etdi:

– Henrietta ona ərə getməyə razı olacaqmı? Ona aşiq olub, mən bilirəm. Əgər Consuz burada ola bilsəydilər... Amma Con hər şeydə Edvarddan üstündür. Sanki o, o birinin uduzduğu hər bir şeyi udur. Nə dediyimi başa düşürsünüz?

Mic yenə də başını tərpətdi.

– Kristou ailəsinin dəvətini təxirə sala bilməzdim, çünki onlarla çoxdan danışmışdıq. Amma mən hiss edirəm, Mic, bizi çətin günlər gözləyir. Devid qaş-qabağını töküb dırnaqlarını çeynəyəcək, Henrietta Herdanı əyləndirəcək ki, darıxmasın, Con əla görünəcək, yazıq Edvardsa, əlbəttə ki, gözə görünməyəcək...

– Pudinqin tərkibi də ürəkaçan deyil, – Mic mızıldandı.

Lüsi gülümsündü.

– Bəzən, – o, fikirli-fikirli dedi, – işlər öz-özünə sahmana düşür. Bazar günü lança qədər xəfiyyəm olacaq. Bu bizi bir qədər əyləndirər, necə düşünürsünüz?

– Xəfiyyə?

– Hə, – ledi Endkatell izah etdi. – Bağdadda Henrinin orada ali komissar işlədiyi vaxtda gördüyümüz adamdır. Unutmuşam artıq nə məsələylə bağlı gəldiyini, bir neçə zabitlə bizim evə nahara gəlmişdilər. İlgəyində gözəl çiçək olan ağ flanel kostyum və qara şiş burunlu ayaqqabı geyinmişdi. Üzünü xatırlaya bilmirəm, bu məşğuliyyət ürəyimcə olmadığından unutmuşam. Mənə elə gəlirdi ki, onu qatil yox, qətlin səbəbi maraqlandırırdı. İnsan öləndən sonra səbəbinin heç bir mənası olmur. Bu qədər başağrısı nəyə lazımdır ki?

– Cinayət bu ətrafda törədildiyinə görəmi həmin centlmen yaxınlıqdadır? – Mic soruşdu.

– Şükür Allaha ki, yox. Bilirisiniz də, bu yaxınlarda keçəndə hamının başı dəydiyi tirli iki yeni malikanə peyda olub. Hər ikisi də qeyri-adi boyalarla rənglənib. Hələ heç nəyə yaramayan o balaca bağçaları demirəm! Birinci mərtəbədə aktrisa, ikinci mərtəbədəsə o qalır. Deyəsən, londonlular bu cür evləri sevirlər, ola bilər ki, bizim kimi burada daimi yaşamırlar, ona görə...

Ledi Endkatell bir neçə saniyəlik susdu, otaqda o baş-bu baş gəzişdi, sonra yenə də davam etdi:

– Əziz Mic, göstərdiyiniz köməyə görə təşəkkür edirəm.

– Mənə elə gəlir ki, sizə köməyim çox az dəydi.

– Elə düşünürsünüz? – ledi Endkatell, qəsdən təəccübünü göstərdi. – Hər necə olsa da, – o davam edirdi, – siz indi yenə yuxuya gedib səhər yeməyinə qədər yatacaqsınız. Yuxudan ayılanda isə yenidən nəzakətsiz, kobud ola bilərsiniz.

Mic də çox təəccübləndi:

– Yenidən? Niyə ki? – anlayıb şaqqanaq çəkib güldü və əlavə etdi:

– Siz çox həssas psixoloqsunuz, Lüsi!

Ledi Endkatell gülümsədi və getdi. Mətbəxin açıq qapısının yanından keçəndə qaz piltəsinin üstündə çaydanı gördü və ağlına belə bir fikir gəldi: Mic çayını vaxtında içə bilməyəcək. Nə olar, onda onunçün özü hazırlayar. Lüsi qazı yandırdı, sonra isə dəhlizlə gedib ərinin yataq otağının qapısının dəstəyini əydi. Amma uzaqgörən administrator ser Henri Endkatell xanımını yaxşı tanıyırdı. O, xanımını çox sevirdi, amma səhər yuxusu da onunçün çox şirin idi. Qapı bağlıydı. Ledi Endkatell yataq otağına qayıtdı. Bir neçə dəqiqə pəncərənin qabağında dayandı, əsnədi, sonra yatağına uzandı. İki dəqiqədən sonra körpə uşaq kimi şirin yuxuya getdi.

Mətbəxdəki çaydan buxarlana-buxarlana qalmışdı.

– Daha bir çaydanı tullamaq lazım gələcək! – qulluqçu Simmons dedi.

Eşikağası Qucen ağarmış başını yellədi, çatlamış çaydanı qulluqçunun əlindən alıb, yenisini gətirmək üçün anbara getdi. Orada şkafda ehtiyat üçün bir düjn belə çaydan saxlayırdı.

– Bu da yenisi, miss Simmons. Miledi çaydanı dəyişdiyimizi heç hiss etməyəcək də.

– Onun çox vaxt fikri belə dağınıq olur?

Qucen ah çəkdi.

– Miledinin qızıl ürəyi var, – cavab verdi, – amma çox diqqətsizdir. Ona görə də madamı bütün qayğı və narahatlıqlardan uzaq saxlamaqdan ötrü evdə mümkün qədər hər şeyə nəzarət edirəm.